# QUZANLIDA ANIM GÜNÜ

## *Milli Qəhrəman Nadir Əliyevin xatirəsi*

Yanvarın 21-də Ağdam rayonunun Quzanlı qəsəbəsində Azərbaycan Respublikası "Alyans" Xüsusi Xidmət Veteranlar Birliyi və Ağdam rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin fədakarlıq məktəbinin nümayəndəsi Azərbaycanın Milli Qəhrəmanı Nadir Alış oğlu Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirildi. Ağdam Dövlət Dram Teatrının binasında baş tutan tədbir Dövlət Himninin səslənməsilə başladı. Aparıcı "Ağdam" qəzetinin baş redaktoru Əməkdar jurnalist Bəxşeyiş Abbasoğlu Hətəmli qonaqları və iştirakçıları salamladı.


AZƏRBAYCAN RESPUBLİKASI
"ALYANS" XÜSUSİ XİDMƏT
VETERANLAR BİRLİYİ

FƏXRİ FƏRMAN

"Xudafərin" qəzetinin redaktoru
Şakir Əlifoğlu – vətənpərvərlik təbliğatına
verdiyi töhfələri, səmərəli
işlərinə və aktiv ictimai fəaliyyətinə görə

TƏLTİF OLUNUR

"ALYANS" Xüsusi Xidmət Veteranlar Birliyinin Sədri

Tarix: 21 - 01 2019-cu il

Tədbirdə Ağdam RİH-nin başçısı Vaqif Həsənovun, Respublikamızın xüsusi xidmət orqanlarının əməkdaş və veteranlarının, Nadir Əliyevin oğlu Şəhriyar Əliyevin, ziyalıların, Qarabağ müharibəsi veteranları, şəhid ailələrinin nümayəndələrinin, rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyini diqqətə çatdırdı.

"Şəhid adı qazananların ölümü kədər deyil, iftixardır" - deyərək şəhidlərimizin və müasir Azərbaycanımızın memarı Heydər Əliyevin xatirəsi yad edildi. "Vətən doğma evin kandarından başlanır" - deyən aparıcı Bəxşeyiş Hətəmli Milli Qəhrəman Nadir Əliyevlə uşaqlıq illərinin, döyüş yolunun bir yerdə keçdiyini söylədi. Milli Qəhrəman Nadir Əliyevin şərəfli ömür yolu barədə məlumat verib, onunla bağlı xatirələrini danışdı.

Belə bir deyim də xatırlandı ki, atın adı-sanı igidin əlindədir, igidin adı-sanı öz əlindədir. Yəni igidlər öz əlləri ilə özlərinin alın yazılarını-qəhrəmanlıq taleyini yazırlar.

Nadir Əliyevin doğulduğu ucqar dağ kəndi olan Əliağalı kəndindəki orta məktəbin məzunu, Nadirin məktəb illərinin dostu, yoldaşı olan II qrup Qarabağ müharibəsi əlili Rasim Rüstəmov da Milli Qəhrəmanın həyatı ilə bağlı bəzi məqamlara toxundu. Onun dərs əlaçısı olduğunu, mübarizlik keyfiyyətlərini xatırladı, hətta bir dəfə müəllimin onlara verdiyi "kimə bənzəmək istərdiniz?" sualına Nadirin Həzi Aslanova, İsrafil Məmmədova, Gəray Əsədova, Qafur Məmmədova deyib, onlar kimi qəhrəman olmağı arzuladığını da tədbir iştirakçılarına bildirdi və qeyd etdi ki, onlar kimi Nadir ərəfədə - 2016-cı ilin aprelində döyüşçülərimiz Lələ təpə yüksəkliyini uğurlu əməliyyat nəticəsində ələ keçirdilər. Bu, mənə çox sevindirici, qürurverici bir stimul verdi. Biz qəhrəmanlarımızı hər zaman anmalıyıq. Biz qəhrəmanlar yetirməyi də, ona dəyər verməyi də bacarırıq. Xüsusi xidmət orqanlarının sabiq əməkdaşları Arif Zeynalov, Azər Qarayev çıxışlarında Milli Qəhrəman Nadir Əliyevin mübarizlik keyfiyyətlərindən danışıb, tezliklə Ağdamın işğaldan azad olunmasını arzuladılar.

Ağdam rayon kitabxanasının müdiri Sevinc Cəfərova, Çinarə İbrahimova, Çinarə İdriszadə və başqaları Azər Hacıbəylinin Nadir Əliyevə həsr etdiyi poemadan parçalar söylədilər.

Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənova söz verildi. O dedi: - Nadir öz kəndlərində doğuldu, amma bütün ölkənin, Azərbaycanın oğlu oldu. Fəxr edirəm ki, kənd orta məktəbində, Universitetdə - BDU-da onunla eyni vaxtda oxumuşuq. Mən ondan bir neçə yaş böyük idim, məndən məsləhətlər alardı, o, Ağdamda xidmət etdi və bu torpaqda da şəhid oldu.

Nadirlə bağlı xatirələrini söylədikdən sonra Vaqif müəllim "Alyans"ın rəhbərliyinə minnətdarlığını bildirdi ki, dəvətimizi qəbul edib bu tədbirə gəliblər. Biz söz veririk ki, Ali Baş Komandanın, ölkə prezidentinin ətrafında sıx birlik nümayiş etdirib, Ağdamı sülh yolu ilə olmasa, hərb yolu ilə işğaldan azad edəcəyik, - deyən İcra Hakimiyyətinin başçısı belə möhtəşəm tədbir münasibətilə iştirakçıları təbrik etdi.

Nadirin ölümü onun ömrünün sonu deyil. Onun ömür işığı heç vaxt sönməyib və 31 illik ömrünün şöləsi bu gün də hər yerdə - hər guşədə parlayır, - deyən aparıcı sözü Milli Qəhrəmanın oğlu Şəhriyar Əliyevə verdi. O, tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini çatdırdı: - Atam Ağdamın işğal olunduğunu görmədi. Mən də istəməzdim ki, Ağdamı görmədən gözlərimi yumum. Arzu edirəm ki, növbəti belə tədbiri tezliklə Ağdamın mərkəzində daha böyük təntənə ilə keçirdək!

Axırda bir qrup adama tədbirdəki fəallıqlarına görə Azərbaycan Respublikası "Alyans" Xüsusi



Əliyevin də həyatı gənclərimizə şanlı qəhrəmanlıq örnəyi oldu.

Rayonun ziyalısı Ramazan Hüseynov: - Qəhrəmanlıq bir anda da olar, yəni bir məqam olar ki, o an qəhrəmanlıq göstərib tarixə düşmək olar. Amma Nadiri qəhrəmanlığa onun əməlləri gətirib çıxartdı, - deyərək bir həmkəndlisi, həmyaşıdı kimi Milli Qəhrəmanla bağlı təəssüratlarını bölüşdü. "Nadirin həyatının süqutu Ağdamın süqutu ilə eyni günə düşür," - deyib onun qəhrəmancasına həlak olmasından danışdı.

Nadirin qəhrəmanlığına ən böyük qiyməti Ulu Öndər Heydər Əliyev verib. Yazıçı-publisist Azər Hacıbəyli də onun haqqında "Zəfər yolu" poeması yazıb, - deyən aparıcı Bəxşeyiş Abbasoğlu sözü ona verdi.

Azər Hacıbəyli: - Nadir Əliyev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş qəhrəmanlıq məktəbinin yetirməsidir. Bu gün Nadirin övladı Şəhriyar da bizim silahdaşımızdır və o, həqiqətən də qəhrəmanlığa layiq bir övladdır, - deyərək bildirdi ki, mən "Zəfər yolu" poemasını yazdığım Xidmət Veteranları Birliyinin və Milli Qəhrəman Gültəkin Əsgərova adına Şəhid Anaları Xeyriyyə Mərkəzinin Fəxri Fərmanları təqdim olundu. Bu sırada öz adımın da çəkilməsi məndə qürur hissinə bənzər hansısa duyğular oyatdı. İstərdim ki, bu duyğular vətənə qovuşmağımla bir zamana düşərdi.

Qeyd edək ki, belə silsilə tədbirlər Bakı şəhərində və bölgələrdə də keçiriləcəkdir.



***Şakir SSLİFOĞLU,***
***"Xudafərin" qəzetinin***
***baş redaktoru***